**Əzim və Alim olan Allahın adı ilə!**

# AĞILIN PƏRDƏLƏNDİYİ PAVELÇİLİK VƏ QURAN İNANCI

Müəllif: **Sərdar Zeynalov** (hüquqşünas-vəkil)

Bu günkü Tövratda tək Allahlıq inacı, tək Allaha qullqu etmək əmri, Allaha ortaqlar edinməmək əmri və Allahın bənzəri olmadığı söylənilmiş olsa da,[1] xristianlığın banisi Pavel öz mistik, "çarmıxdakı allahın tökülən qanı ilə xilas" dini ilə həm Hz.İsaya iman etmiş yəhudilər arasında, həm də nəsranilər adlanan və İsanın sadəcə bir elçi və nəbi olduğunu qəbullanan davamçılar arasında bu günəcən sürən böyük bir fitnənin əsasını qoydu. Çağdaş xristianların böyük əksəriyyəti hələ də Pavelin məktubları əsasında ərsiyə gəlmiş İncillərin formalaşdırdığı inaca sarılaraq həyatlarını sürdürürlər. Pavelin məktubları isə "ilahi" mənşəli pavelçi dövlətin-bu günkü kilsə-Roma papalığının hüquqi və ruhani əsaslarını təşkil edən ilkin xristian normaları sayılır. Pavelin, Hz.İsanın gətirdiyi müsülman inacından sonra yaratdığı yeni dini bütün anlamı ilə Hz.İsanı inkar etmək idi. Pavel öz məktublarında addım-addım, mərhələ-mərhələ Hz.İsanın tövhidini inkara üz tutaraq, yeni nəsil insanlar üçün öz pavelçiliyini yaradır. Daha ötəsi bu oldu ki, Pavel Allahın insanlara və tüm canlılara verdiyi ağılı rədd etdi və ağılın yerinə öz uydurma ruhaniliyini qoymuş oldu.[2] Pavelin Romalılara yazdığı məktubun I hissəsinin 1:25-ci pasajında əgər məxluqa pərəstiş pislənirsə, elə həmin məktubun 3-cü fəslinin 25-ci pasajında Pavel Allaha iftira ataraq, guya Məsihi dünya ilə barışmaq üçün Allahın qurban seçdiyini söyləyir, davamında da bunu Allahın ədaləti sayır. Bəllidir ki, bu cür iddia normal insan ağılı ilə qəbulanmıyacaq bir haldır, bu üzdən də Pavel öz dininin əsasını bu başdan ağılla deyil, yalançı, uydurma ruhaniyyətə bağladı. Quranda Allah insanı düşünməyə, ağıl etməyə, dərkə dəvət etdiyi halda, Pavelin dinində ağıll inkar edilir və səbəb də İsa Allah-Allah İsa inacının yürüməsini dəstəkləməkdir.Allah Quranda, yaratdığı bütün hər şeyin ağıl sahibləri üçün bir dəlil olduğunu söylərkən bizləri imana ağıl üzərindən dəvət etmiş olur.[3] Pavelin yaratdığı dində isə guya Allahın Ona iman edənləri ağılsızlıqla xilas etdiyi iddia edilir.[4] Bundan irəli gəlmişdir ki, orta əsrlərdə uzun zamanlar kilsə elmə və elm xadimlərinə qarşı sərt mübarizə aparmış, qətillər törətmiş və elmi ixtiralara qarşı çıxmışdır. Pavel, məsihçiliyi-əslində isə pavelçiliyi son yol, qurtuluş və xilasın özü sayaraq, İsadan sonra gələcək olan rəsulun inkarının əsasını da qoymuşdur.[5] Korinfililərə yazdığı məktubun II hissəsinin, 5-ci fəslinin 20-ci pasajında Pavel bu günkü kilsə-papa sisteminin təməlini qoyur.[6]

Quranın düşüncəyə, dərkə dəvət çağrışından fərqli olaraq, bugünkü xristanlığın sarılıb, inac etdiyi pavelçilikdə dərk və ağıl Pavelin "çarmıx qurbanı" inamını təsdiq etməyə maneə olan xislətdir.[7] Pavelin qurduğu dində Allahın nazil etdiyi kitab deyil, Pavelin öz dini üçün qurban seçdiyi, "çarmıxda ölmüş" İsa salehliyin və Allaha yaxınlaşmağın vasitəsidir.[8] Hətta Pavel daha irəli gedərək İsanı günahların bağışlanması üçün verilmiş

---

[1] Hoşea, 13-cü fəsil, 4-cü pasaj, Hezikel, 11-ci fəsil, 19-20-ci pasajlar, İşaya, 40-cı fəsil, 25-ci pasaj, 43-cü fəsil, 10-cu pasaj, 45-ci fəsil,12-ci pasaj, 46-cı fəsil, 9-10-cu pasajlar, Musanın Çıxış kitabı, 20-ci fəsil, 3-4 və 23-cü pasajları, Təsniyə,4-cü fəsil,2-ci pasaj, 10-cu fəsil, 13-cü pasaj ,11-ci fəsil,16-cı pasajlar.

[2] Pavelin Korinfillilərə məktubu I. 2-ci fəsil,14-cü pasaj.

[3] Bəqərə surəsi,164.cü ayə,Əraf surəsi, 185-ci ayə və.s

[4] Pavelin Korinfililərə məktubu, I.1-ci fəsil,21-ci pasaj.

[5] Pavelin Korinfililərə məktubu,I. 3-cü fəsil,11-ci pasaj.

[6] "biz Məsihin sifətləriyik, Allah bizim vasitəmizlə insanlara müraciət edir."

[7] Pavelin Korinfililərə məktubu,I.1-ci fəsil,18-ci pasaj.

[8] Pavelin Qalatiyalılara məktubu, 2-ci fəsil, 16-cı pasaj.

lənətli qurban da hesab edir.[9] Quranın ağıl və düşüncə üzərində qurduğu iman dəvəti insanın fitrətinə yönəlik bir çağrışdır. Çün ki, insan dünyada ikən onu əhatə etmiş aləmlə təmasda olmaqla yaşayıb-işləyir və yaradıb-qurur. Bundan irəli gələrək də, Allah bizləri, ətrafımızda gördüklərimiz varlıqlar vasitəsi ilə düşüməyə dəvət edərək, Ona qüdrətinin dəlilləri ilə iman etməyə çağırır.[10] Tək Nəhl surəsinin 4-cü ayəsindən etibarən 13-cü surəsinə qədər zikr etsək, görəcəyik ki, Allah ağıl etməyə, düşünməyə, diqqət etməyə nə qədər önəm vermişdir. Pavelin dinində hər şeyin başlanğıcı İsadır, hər şey varlığını İsaya borcludur, İsa Allahın çarmıxda tökülən qanıdır.[11] Timoteyə yazdığı məktubunda Pavel, Allahın bədəndə zühurunu iqrar edərək, "insan allah, allah insan" xristian inacının zərurliyini bəyan edir.[12] Bunları oxuyarkən aydın olur ki, Pavelin qurduğu dində ağıl rəddə məhkum olmalıdr, çün ki, pavelçiliyin iddiaları ağıl və məntiqə əsaslanmır, Sünətillaha söykənmir. Pavelin dini Allahı İsanın bədənində çarmıxda qətil edir, Allahın, Öz qanını Məsih vasitəsi ilə axıdaraq, günhakar dünya ilə barışdığını bildirir, İsanı Allahla eyni başlanğıca sahib edir.[13] Allah isə Quranda ağılla düşünənlərə belə bir sual edir:

*Allah Məryəm oğlu İsadır deyənlər kafir oldular. De: Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olan hər kəsi həlak etmişdirsə, kim Allaha qarşı çıxa bilər ki?*[14]

Və ya Allah birdə belə sual edir:

*Məgər Yardan heç yaratmayan kimidirmi? Siz düşünmüyəcəksiniz?*[15]

Daha sonra Allah deyir:

*Gerçək budur ki, İsa da Allah qarşısında Adəm kimidir. Allah onu torpaqdan xəlq etdi və ona OL dedi və o da var olmuş oldu.*[16] Yaxud da başqa bir gerçəyə Allah diqqət çəkir:

*Yoxsa onlar Allaha heç nə yaratmayan, özləri yaradılmış olanlarımı ortaq qoşurlar? Onlara yardım etməyən və özlərinə də yardımları yetməyənlərimi?*[17]

Və ya başqa bir həqiqət üzərində Allah ağıl etməyə çağırır:

*De: şərikləriniz arasında haqqa yönəldən varmı? De: Allah haqqa yönəldir. Haqqa yönəldənmi ona tabe olunmağa daha çox haqlıdır, yoxsa özü haqqa yönəldilmədikcə haqqı tapa bilmiyənmi? Siz nə olmuşdur, necə mühakimə yürüdürsünüz?*[18]

Digər bir gerçək:

*Ey insanlar! Bir məsəl çəkilir,ona qulaq asın! Sizin Allahın yaxınından çağırdıqlarınız hamısı bir araya gəlsə də, bir milçək belə yaratmağa qadir deyildilər. Əgər milçək onlardan bir şey alıb aparsa, onlar onu ondan geri almağa da qadir deyillər. Istəyən də acizdir, istənilən də!*[19]

Pavelçilik bu deyilən gerçəkləri düşünməyi ağılı inkar etmələri səbəbindən yaxın buraxmaz. Quran, görən gözü deyil, qəlbin gözünü kor sayar,[20] qəlb imanın qərar

---

[9] Qalatiyalılara məktub, 3-cü fəsil, 13-cü pasaj.
[10] Göylərdə və yerdə neçə ayətlər vardır ki, yanlarından ötüb keçərlər, amma üz döndərərlər. Yusif surəsi, 105-ci ayə.
[11] Pavelin Koloslulara məktubu, 1-ci fəsil, 13-22-ci pasajlar.
[12] Timoteyə məktubu, I. 3-cü fəsil, 16-cı pasaj.
[13] Efeslilərə məktubu. 1-ci fəsil, 4-10-cu pasajlar.
[14] Maidə surəsi,17-ci ayə.
[15] Nəhl surəsi, 17-ci ayə.
[16] Ali-İmran surəsi,59-cu ayə.
[17] Əraf surəsi,191-ci ayə.
[18] Yunus surəsi,35-ci ayə.
[19] Həc surəsi,73-cü ayə.
[20] Həc surəsi,46-cı ayə.

verildiyi yerdir, lakin Qurana əsasən ağılla həmfikir olmayan qəlbin seçimi haqq yox batil olur. Biz bunu Pavelin yaratdığı xristianlıqda şahid oluruq. Baxmayaraq ki, İncilin "Rəsulların işləri" bölümündə -3-cü fəsil, 13-cü pasajda Piter İsanı sadəcə Allahın mübarək qulu adlandırır,[21] insanalrdan çox Alalha qulluq etməyə dəvət edir,[22] Pavel özü də gerçək Allahı Afinalara tanıdır,[23] buna baxmayaraq Pavel öz yəhudi-roma kökənli çoxtanrılıq və ya tanrı-insan, insan –tanrı mifologiyasını yeni yartdığı dinində əsas tutdu. Ancaq əfsus ki, pavelçilik bir çox yönü ilə islam məzhəblərinə də sirayyət etdi. Zira Allah, ağlını istifadə etməyənlərin üzərinə pisliyi əzab olaraq gətirəcəyini vacib buyurmuşdur.[24]

---

[21] Həmçinin bax:Rəsulların işləri,4-cü fəsil,27-ci pasaj.
[22] Rəsulların işləri,5-ci fəsil-29-cu pasaj.
[23] Rəsulların işləri,17-ci fəsil-24-25-ci pasajlar.
[24] Yunus surəsi, 100-cü ayə.